**Ərtegin Salamzadə**
*AMEA-nın müxbir üzvü, professor*
*AMEA Memarlıq və İncəsənət İnstitutu*

ertegin.salamzade@mail.ru

# AZƏRBAYCAN XALÇALARINDA HEYDƏR ƏLİYEVİN OBRAZI

**Xülasə.** Məqalədə ulu öndər Heydər Əliyevin xalça sənətindəki obrazından bəhs olunur. Müəllif qeyd edir ki, Azərbaycanın bir çox tanınmış sənətkarları xalça üzərində onun portretini yaratmışlar. Kamil Əliyev, Eldar Mikayılzadə, Tahir Məcidov və başqalarının yaratdığı xalçalar daha böyük maraq doğurur. Bu xalçalarda Heydər Əliyev təkcə müdrik və qətiyyətli dövlət başçısı, təcrübəli siyasətçi kimi deyil, həm də nəcib insani keyfiyyətlərə malik sadə vətəndaş kimi təsvir edilmişdir. Üzərində Heydər Əliyevin portreti olan xalçalar Azərbaycan xalça sənətinin inkişafında yeni mərhələdir. Bir sıra xalçalarda o, xalq kütlələrinin, tarixi-memarlıq abidələrinin və müasir tikililərin əhatəsində təsvir edilmişdir ki, bu da rəhbərə olan hörmət və ehtiramı, ümumxalq sevgisini, həmçinin onun qurub-yaratmaq missiyasını rəmzi mənada ifadə edir.

***Açar sözlər:*** Heydər Əliyev obrazı, xalçaçılıq, portret, Kamil Əliyev, Eldar Mikayılzadə.

Rəssamlıq və heykəltəraşlıqda olduğu kimi, ulu öndər Heydər Əliyevin obrazı dekorativ-tətbiqi sənətdə də öz əksini tapmışdır. Şübhəsiz ki, bu sahədə əsas yeri xalq yaradıcılığının aparıcı sahəsi olan xalçaçılıq tutur. Xüsusən son illərdə üzərində Heydər Əliyevin təsvirləri olan bir-birindən gözəl, rəngarəng xalçalar toxunaraq ərsəyə gəlmişdir. Bu xalçalar müasir Azərbaycan dekorativ-tətbiqi sənətlərində mühüm yer tutur.





Ulu öndərin xalça üzərində ilk təsvirlərindən birini istedadlı xalça ustası, xalq rəssamı Kamil Əliyev yaratmışdır. Xalça zəngin nəbati ornamentlərlə bəzədilmişdir. Bu qiymətli sənət əsəri bir neçə cərgə haşiyəyə malikdir. Bu haşiyələr əsasən göy və qırmızı rəngli naxışlarla bəzədilmişdir. Xalçanın yerliyi isə əsasən açıq qəhvəyi rəngdə olub göy və qırmızı naxış elementləri ilə örtülmüşdür. Xalçanın mərkəzində oval formalı medalyon yerləşir. Medalyon əsasən göy və qırmızı rəngli enli haşiyə ilə əhatələnib. Medalyonun içində Heydər Əliyevin rəsmi böyük sənətkarlıqla toxunulub. Onun aydın siması, nüfuzedici baxışları dəqiqliklə xalçaya həkk edilib. Heydər Əliyevin göy-mavi kostyumu xalçanın göy rəngli naxışları ilə ahəngdarlıq təşkil edir. Medalyonun tünd-qırmızı fonu isə xalçanın qırmızı bəzək elementləri ilə kolorit bağlılığına malikdir [şəkil № 1].

Ümumiyyətlə, Kamil Əliyev xalçaçılıq sahəsində ulu öndərin ilk obrazını canlandırmış sənətkarlardan biridir. Hələ ötən əsrin sonlarında o, Heydər Əliyevin səhra generalı libasında təsvir olunduğu xalça yaratmışdı. "Görkəmli insanın portretini yaratmağın məsuliyyət tələb etdiyini anlayan xalçaçı-rəssam Heydər Əliyevin səhra generalı formasında portretini yaratmaq, bununla da onun hələ cavan ikən aldığı general rütbəsini yada salmaq niyyətinə düşür. 1998–1999-cu illərdə K.Əliyev görkəmli siyasi xadim Heydər Əliyevin general formasında iki xalça-portretini işlərdi. 1999-cu ilin fevralında xalçaların prezentasiyası keçirildi və əsərlər Xalça muzeyinə verildi" [1, s. 209]. Kamil Əliyev həmin əsərlərin yaradılmasını belə xatırlayırdı: "Görkəmli insanın portretinin yaradılması xeyli məsuliyyət tələb edirdi. Mən Heydər Əliyevin portretini onun general formasında yaratmaq, hamıya onun hələ gənc ikən layiq görüldüyü general

rütbəsini xatırlatmaq, bununla da bizim gənc döyüşçülərimizi, çağırışçılarımızı ruhlandırmaq fikrində idim. 1998–1999-cu illərdə görkəmli siyasi xadimimiz Heydər Əliyevin döyüşçü, general formasında təsviri olan xalçanın iki variantını hazırladım. Heydər Əliyevin general formasında olan portret xalçasını mən iki dəfə yaratmışam. Birinci variant başa çatdıqdan sonra həmin Xalça Muzeyinin ekspozisiyasına verildi. Heydər Əliyevin general formasında portreti olan xalçanın ikinci variantının təntənəli surətdə təqdimatı "Gülüstan" sarayında keçirildi. Heydər Əliyevin portretinin sağında və solunda oğlum Cavanşirin hazırladığı iki ornamental tirmə naxışlı xalça asılaraq, ümumi kompozisiyanı tamamlayırdı" [4, s. 15-16]. Bu xalça üç hissəli triptixdir. Triptixin yan hissələri uzunsov olub haşiyə xarakterli nəbati ornamentlərlə bəzədilmişdir. Hər üç hissə kompozisiya və kolorit baxımından bir-biri ilə uyğunluq təşkil edir. Ortada yerləşən xalça isə nisbətən enlidir; onun mərkəzində Heydər Əliyevin obrazı toxunmuşdur. Xalçanın sarı-yaşıl rənglərin üstün olduğu haşiyəsi Heydər Əliyevin əynindəki göy-yaşıl rəngli səhra generalı libası ilə kolorit ahəngdarlığına malikdir. "Kamil Əliyevin müəllifi olduğu portretli xalçalar müasir Azərbaycan xalça sənətinin inkişafında yeni mərhələ təşkil edir. Ulu öndərimiz Heydər Əliyevi general libasında əks etdirən triptix xalça dəsti onun sənətinin ən görkəmli nümunələrindəndir" [2, s. 299].

Kamil Əliyev ulu öndərin xalça üzərində general libasında daha möhtəşəm surətini də canlandırıb. Həmin xalçada Heydər Əliyev səhra yox, bayram hərbi geyimində təsvir olunub. Onun əynindəki tünd göy general libası, qızılı poqonları xalçanın haşiyəsinin şux qırmızı-sarı kolorit həlli ilə ahəngdarlığa malikdir.

Qocaman sənətkar ömrü boyu yaxın münasibətlərdə və ünsiyyətdə olduğu ümummilli liderin müxtəlif formalı obrazlarını xalça üzərində canlandırmışdır. Bu obrazların əksəriyyəti rəsmi xarakter daşıyır. Tamaşaçı bu xalçalarda Heydər Əliyevi qətiyyətli hərbi komandan, müdrik dövlət başçısı kimi görür. Lakin ulu öndəri sadə bir insan, təəssübkeş ziyalı, yumor hissindən məhrum olmayan şəxsiyyət kimi təqdim edən xalça nümunələri də vardır. K.Əliyevin ömrünün son illərində ərsəyə gətirdiyi xalça məhz belələrindəndir. Xalça nisbətən sadə kompozisiya quruluşuna malikdir. Onun mərkəzində oval formalı medalyon yerləşir. Heydər Əliyevin əksi bu medalyonun içərisində toxunmuşdur. Onun əynində boğazlı köynək (vodolazka) vardır. Ulu öndər əllərini sinəsində çarpazlayaraq aydın baxışlarını irəliyə, bir qədər yuxarıya dikmişdir. Xalçada Heydər Əliyevin nəcib insani keyfiyyətləri, bir insan kimi sadəliyi daha aydın nəzərə çarpır.

Xalçanın yerliyi və ara sahəsi şaquli istiqamətdə uzanan kiçik naxışlarla, haşiyəsi isə nisbətən böyük ölçülü nəbati ornamentlərlə bəzədilmişdir. Medalyonu çevrələyən haşiyə xalçanın ümumi haşiyəsi ilə kompozisiya və kolorit ahəngdarlığına malik olub onu daha effektli göstərir.

Müasir dövrdə Heydər Əliyevin xalça üzərində obrazını yaratmış sənətkarlar içərisində Xalq rəssamı Eldar Mikayılzadə xüsusilə seçilir. Geniş yaradıcılıq imkanlarına, hərtərəfli istedada malik E.Mikayılzadə xalçaçılıqda Heydər Əliyevə həsr edilmiş ən maraqlı, bədii baxımdan mükəmməl xalçaların müəllifidir. "Xalçaçılığa rəngkarlıqdan gələn Eldar Mikayılzadənin bu sahədə yaratdıqları da diqqət çəkən və cəzbedicidir desək, yanılmarıq. Bizə elə gəlir ki, bütün yaradıcılığı boyu onun gah ilmələrə, gah da rənglərə tapınmasının hər iki sahədə ərsəyə gətirdiyi əsərlərin bədii təcəssümünə müsbət təsiri olmuşdur." [3, s. 39].

Eldar Mikayılzadə Heydər Əliyev mövzusunda iki əsas xalçanın müəllifidir. Bu xalçalar əlvan kolorit həlli, yığma təsvirlərdən ibarət fonu, müxtəlif ayrıntılarla zəngin olan haşiyələri ilə diqqəti cəlb edirlər. Xalçaların hər ikisi "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev" adlanır. Bu xalçaların biri 2003-

cü, digəri isə 2008-ci ildə toxunub. Hər iki xalça əlvan koloriti ilə diqqət çəkir. Eyni zamanda onların fərqli xüsusiyyətləri də çoxdur. Birinci xalça düzbucaqlı formada, üfüqi quruluşa malik olduğu halda ikincisi şaquli quruluşa malikdir. Birinci xalçada göy rənglər üstün olduğu halda (haşiyəni nəzərə almasaq), ikincisində qırmızı rənglər üstündür.

2003-cü ildə toxunmuş "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev" xalçası vizual baxımdan vahid süjet xəttinə əsaslanan, lakin yığma elementlərdən təşkil edilmiş rəngarəng kompozisiya həllinə malikdir. Qırmızı-sürməyi rənglərin üstün olduğu geniş haşiyəli xalçanın sol hissəsində Heydər Əliyev kresloda oturmuş vəziyyətdə əks olunub. Onun gülümsər baxışları tamaşaçıya doğru çevrilmişdir. Ulu öndər tünd göy rəngli bayram kostyumunda təsvir edilib ki, bu da xalçanın qırmızı-sürməyi haşiyəsi ilə effektli kolorit təzadı yaradır. Heydər Əliyevin arxasında dağlar, yuxarı sol küncdə üçrəngli Azərbaycan bayrağı, gecə səması, onun fonunda ay-ulduz təsviri diqqəti cəlb edir. Bunların qarşısında, xalçanın əks tərəfində dağların arxasından boylanan günəş, nurlu səhərin açılması səhnəsi yer almışdır. Bu maraqlı təzad uğurlu kolorit həlli vasitəsilə daha effektli təsir bağışlayır.

Eldar Mikayılzadənin ulu öndər Heydər Əliyevə həsr etdiyi ən əhəmiyyətli əsərlərindən biri "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev" (2008) xalçasıdır. Xalçada ulu öndərin həyatı və geniş quruculuq fəaliyyəti çoxsaylı ayrıntılar, arasahə və haşiyılərdəki müstəqil süjetli lokal kompozisiyalar vasitəsilə öz ifadəsini tapır.

Xalça kompozisiya etibarilə uzununa quruluşa malikdir (müqayisə üçün xatırladaq ki, 2003-cü ildə toxunulmuş eyni adlı xalça eninə quruluşa malikdir). Xalçanın uzununa quruluşu kompozisiyada Heydər Əliyevin ayaq üstə dayanaraq əlini qaldırıb xalqı salamlaması ilə əlaqədardır. Kompozisiyanın





mərkəzində ulu öndərin əzəmətli surəti əks olunub. Onun əynində tünd rəngli kostyum, ağ köynək vardır; ulu öndər qırmızı qalstukda təsvir edilmişdir. Heydər Əliyevin şax duruşu, gülümsər, mehriban siması xalçanın əlvan koloritinə sanki xüsusi rəng qatır. Kompozisiyanın ara sahəsində, Heydər Əliyevin ətrafında Azərbaycanın müxtəlif tarixi-memarlıq abidələri, həmçinin təbiət görüntüləri qruplaşdırılıb. Müəllif xalçanın əsas işçi sahəsinin üst hissəsini yarımsferik formada həll etmişdir. Onun daxilində mavi səma, arxa planda təbiət görüntüləri, o cümlədən məşhur İlan dağı nəzərə çarpır. Təbiət mənzərələri kompozisiyanın əsasən yuxarı hissəsində yerləşir. Ulu öndərin ətrafında müəllif tarixi-memarlıq abidələri əks etdirib. Sol tərəfdə qədim Naxçıvan torpağının tarixi-memarlıq abidələri – Möminə xatın, Yusif ibn-Küseyr məqbərələri, Qarabağlar türbəsi, İmamzadə, Gülüstan mavzoleyi əks olunub. Araz çayı üzərindəki Xudafərin körpüsü xalçanın sol aşağı tərəfində işlənmişdir. Ara sahənin sağ tərəfində isə Şəki xan sarayı, Şamaxı yaxınlığındakı Diri Baba türbəsi, həmçinin Bakı-Abşeron abidələri, Xəzər dənizi, neft buruqları və s. nəzərə çarpır. Suraxanı atəşgahı, əzəmətli Qız qalası, Şirvanşahlar sarayı və onun ayrı-ayrı tikililəri ayrıntılar arasında xüsusilə seçilir [şəkil № 2].

Müasir Azərbaycan xalça sənətində Heydər Əliyev mövzusuna müraciət etmiş sənətkarlardan biri də Tahir Məcidovdur. O, üzərində ulu öndərin obrazının əks olunduğu, yüksək bədii sənətkarlıq keyfiyyətləri ilə seçilən xalça nümunələri yaratmışdır. "Vaxtilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Xalçaçılıq" fakültəsini bitirmiş, böyük xalçaşünas alim Lətif Kərimovun tələbəsi olmuş xalçaçı-rəssam Tahir Məcidovun arzusu Heydər Əliyevin keçdiyi şərəfli həyat yolunu, xalqına olan məhəbbətini xalçada əks etdirmək idi. Bu fikirlə o, həyatının bir neçə ilini həmin xalçanın yaradılmasına həsr etmişdi" [5, s. 31]. Şübhəsiz ki, T.Məcidovun ulu öndərə həsr etdiyi

ən qiymətli xalça nümunəsi məşhur "Qayıdış" xalçasıdır [şəkil № 3]. Bu xalça nəinki T.Məcidovun yaradıcılığında, ümumiyyətlə Heydər Əliyevə həsr edilmiş xalçalar arasında öncül yerlərdən birini tutur.

"Qayıdış" xalçası kompozisiya etibarilə uzununa olub çoxsaylı detal və lokal təsvirləri özündə birləşdirir. Bu baxımdan onu E.Mikayılzadənin "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev" (2008) xalçası ilə müqayisə etmək olar. Bu iki xalçanı bir biri ilə əlaqələndirən ortaq məqamlar az deyil; ulu öndər Heydər Əliyevin kompozisiyanın mərkəzində verilən əzəmətli surəti, ara sahədə və haşiyələrdə yerləşdirilən ayrıntılar, tarixi və müasir memarlıq nümunələrinin təsvirləri, isti, əlvan rənglərin üstünlük təşkil etdiyi kolorit həlli bunu deməyə əsas verir. Maraqlıdır ki, E.Mikayılovun əsərində Heydər Əliyev dayanmış vəziyyətdə təsvir olunubsa, T.Məcidovun "Qayıdış" kompozisiyasında o, addımlayan, irəliyə doğru gələn durumda təsvir edilmişdir. Heydər Əliyevin tünd göy kostyumu ətrafdakı isti rənglərin əhatəsində daha əzəmətli təsir bağışlayır ki, bu barədə yuxarıda söz açmışdıq. Kompozisiyada Heydər Əliyev sol əlini (E.Mikayılzadənin əsərində sağ əlini) qaldıraraq xalqı salamlayır. Onun üzündəki səmimi təbəssüm ümummilli liderin insani keyfiyyətlərini dolğun əks etdirir və sanki bu dahi insanı böyük sevinc içərisində onu qarşılayan insan kütləsinə daha da yaxınlaşdırır.

Ulu öndərin arxasında müəllif ağ buludlu mavi səmanın fonunda Azərbaycan bayrağını təsvir edib. Bayrağın simmetrik quruluşlu dərin büküşləri orijinal görünüşə malikdir. Arxa planda Tahir Məcidov müxtəlif təbiət mənzərələrini, o cümlədən əzəmətli İlan dağını təsvir etmişdir. Kompozisiyanın müxtəlif hissələrində həmçinin Culfadakı Gülüstan mavzoleyinin, Bakıdakı Qız qalasının, İşərişəhərin bürclərinin, eləcə də Heydər Əliyevin inşa etdirdiyi binaların – Gülüstan sarayının, hazırda ulu





öndərin öz adını daşıyan sarayın və başqa tikililərin görüntüsü nəzərə çarpır.

T.Məcidovun başqa bir əsəri Heydər Əliyevin 80 illiyinə həsr edilmiş yubiley xalçasıdır. 2003-cü ildə toxunmuş bu xalça ulu öndərə həsr edilmiş xalça nümunələri arasında diqqəti cəlb edən əsərlərdən biridir. Xalçanın kompozisiyası qeyri-ənənəvi həndəsi quruluşu ilə diqqəti cəlb edir. Burada xalça sənəti üçün səciyyəvi olan medalyon, ara sahə və s. nəzərə çarpmır. Müəllif xalçanın mərkəzində ulu öndərin təsvirini əks etdirmişdir. O, öz iş kabinetində, stol arxasında ayaq üstə dayanmış vəziyyətdə təsvir olunub. Heydər Əliyev sol əlini stola dirəmiş, qələm tutduğu sağ əlini isə azca yuxarı qaldırmışdır. Ulu öndərin bu pozası onun T.Salahov tərəfindən çəkilmiş portretini xatırladır. Heydər Əliyevin əynində tünd göy rəngli kostyum vardır. Əksər xalçalarda göy kostyum xalçanın qırmızı-sürməyi haşiyəsi və ara sahəsi ilə kolorit təzadı təşkil edir. Lakin sözü gedən xalçanın kolorit həllində qırmızı yox, göy rənglər üstündür. Bununla da xalçada rənglərin kontrastlığı ahəngdarlıqla əvəz olunur.

Xalçanın kompozisiyasında göy rənglə yanaşı, aşıq qəhvəyi rəng tonları da üstündür. Belə ki, xalçanın mərkəzindəki təsvir qəhvəyi rəngli, xalça özü isə göy-qəhvəyi rəngli haşiyə ilə əhatələnmişdir.

Xalçanın mərkəzi hissəsində diqqət çəkən məqamlardan biri də ulu öndərin arxasındakı divardan asılmış təqvimdir. 2003-cü ilin təqvimi olan bu təqvimin ön səhifəsində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın Ö.Eldarov tərəfindən hazırlanmış "Elegiya" adlı heykəli görünür. Zərifə xanım arxadan sanki ömür-gün yoldaşına baxaraq onu daha əzmlə çalışmağa ruhlandırır, ona dəstək olmağa çalışır.

Xalça sənətində Heydər Əliyev mövzusu geniş və rəngarəngdir. Burada qeyd olunanlardan başqa, həmin mövzuda bir çox başqa xalçaları da xatırlamaq olar. Onların hər birində

ulu öndərin obrazı özünəməxsus tərzdə ilmə-ilmə xalça üzərində toxunulmuş, bu böyük şəxsiyyətin həyat salnaməsi xalçaların guşələrində, ayrı-ayrı hissələrində öz rəmzi təcəssümünü tapmışdır. Biz bu kiçik məruzədə ən əhəmiyyətli xalçaların bir qismi haqqında çox qısa məlumat verdik. Ümid edirik ki, gələcəkdə bu mövzuda ətraflı elmi-tədqiqat işləri aparılacaqdır.

**ƏDƏBİYYAT:**

1. Əfəndiyev T.İ. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. – Bakı, "Zərdabi LTD", 2011.
2. Əfəndiyev T.İ. Mədəniyyətdə tarixilik və müasirlik. – Bakı: Təhsil, 2011.
3. Əliyev Z.A. Eldar Mikayılzadə. İlmələrin hikməti. – Bakı: Letterpress, 2013.
4. Əliyeva K.M. Ümummilli lider Heydər Əliyevin obrazı xalçalarda // Azərbaycan xalçaları. Cild 3, 2013, № 8, s. 15-16.
5. Əliyeva K.M. Ümummilli lider Heydər Əliyevin obrazı xalçalarda (Kamil Əliyev və Tahir Məcidovun yaradıcılığı əsasında // Heydər Əliyev və Azərbaycan incəsənəti (Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr olunmuş Respublika elmi konfransının materialları). – Bakı: "Orxan" NPŞ MMC, 2016, s. 23-35.

**Artegin Salamzade**

**Heydar Aliyev image on the Azerbaijani carpets**

The article deals with the Great Leader Heydar Aliyev's image in the carpet art. The author mentions that a number of well-known carpet-artists of Azerbaijan created his portrait on carpets. The carpets worked by Kamil Aliyev, Eldar Mikayilzadeh, Tahir Majidov and other artists cause more interest. In these carpets Heydar Aliyev has been portrayed not only like wise and resolute head of state, skillful politician, but also as a common citizen with noble human qualities. The carpets with Heydar Aliyev's portrait on it is a new phase in the development of Azerbaijani carpet art. On a number of carpets he was depicted surrounded by masses, against the background of historical and architectural monuments and modern buildings, which symbolizes the respect and esteem for the leader, the nationwide love , and as well as his build-up mission.

***Key words:*** Heydar Aliyev image, carpet weaving, portrait carpet, Kamil Aliyev, Eldar Mikayilzadeh.





**Эртегин Саламзаде**

**Образ Гейдара Алиева на азербайджанских коврах**

В статье говорится об образе Гейдара Алиева в ковроткачестве. Автор отмечает, что многие известные азербайджанские мастера создали его портрет в ковровом искусстве. Представляют большой интерес произведения, авторами которых являются Кямиль Алиев, Эльдар Микаилзаде, Таир Меджидов и др. На этих коврах Гейдар Алиев изображен не только как мудрый и решительный глава государства, опытный политик, но и как простой гражданин с благородными человеческими качествами. Ковры с портретом Гейдара Алиева – это новый этап в развитии азербайджанского коврового искусства. На ряде ковров он изображен в окружении народных масс, на фоне исторических и архитектурных памятников и современных зданий, что символизирует уважение и всенародную любовь к общенациональному лидеру, а также его великую созидательную миссию.

***Ключевые слова:*** образ Гейдара Алиева, ковроделие, портрет, Камиль Алиев, Эльдар Микаилзаде.

## ŞƏKİLLƏR:



1. Heydər Əliyev xalçası. Müəllif Kamil Əliyev. 1980








2. "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev" xalçası. Müəllif Eldar Mikayılzadə. 2008



3. "Qayıdış" xalçası. Müəllif·Tahir Məcidov. 2002